UOT 339.9

*dos. Sədaqət Elman qızı ƏHMƏDOVA*
*Bakı Dövlət Universiteti, böyük laborant,*

*Vəfa Çingiz qızı QULİYEVA*
*Naxçıvan Dövlət Universiteti, dissertant*
*vefaquliyeva96@gmail.com*

# QLOBALLAŞMA FONUNDA MİLLİ ƏRZAQ KOMPLEKSİNİN DAYANIQLI İNKİŞAFI

***Giriş***

Tədqiqat işində respublikamızda aqrar iqtisadiyyatın qlobal baxımdan müstəvidə olan mövqeyi, gələcəkdəki inkişafetmə perspektivləri və nəzəri-metodoloji əsaslara dayanaraq təhlili irəli gətirilmişdir.

Qloballaşma şəraitində ƏK-nin modernizasiyasında dayanıqlığın təmin edilməsi, bu ölkənin ixrac yönümlü və innovativ ərzaq mallarının istehsal versiyalarının müəyyənləşməsində bir sıra tədbirlərin yerinə yetirilməsi qeyd edilmiş, praktiki əhəmiyyətli nəticə və təkliflər verilmişdir.

***Məqsəd -*** ideya məqsədi ərzaq kompleksinin modernizasiya olunması və dayanıqlığının təmin edilməsi, ölkənin ixrac yönümlü və innovativ ərzaq məhsullarının istehsal olunmasının elmi baxımdan idarə edilməsi variantlarının müəyyən edilməsidir.

***Metodologiya -*** tədqiqat işində müqayisə və analitik göstəricilər sisteminin qurulması metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri -*** dövlətin özünəxas siyasətinin əsas hesab edilən istiqamətinə əsaslanılmış şəkildə dayanıqlı inkişafının etaplarını keçirən Azərbaycanın ərzaq kompleksinin elmi əsaslara dayanan şəkildə tədqiqinin strateji baxımdan əhəmiyyəti üzrə müvafiq təkliflər verilmişdir.

***Açar sözlər: ƏK, ərzaq təhlükəsizliyi, modernizasiya, dayanıqlı inkişaf.***

## *Giriş*

ƏK ölkədə olan qida mallarına yaranan tələbatların ödənilməsində fəal iştirak etməklə bərabər, vətəndaşların yaşayış imkanlarını həyata keçirir. Beynəlxalq aləmdə baş verməkdə olan iqtisadi-siyasi böhran proseslərinin davamlı olduğu müasir şəraitdə ƏK-nin inkişafında modernizasiyanın metodoloji və nəzəri baxımdan əsaslarının yeni formada yanaşılmasına ehtiyac vardır. Modernizasiya imkan yaradır ki, Azərbaycanda olan dayanıqlı ərzaq mallarının istehsalı sahələrinin daha çox inkişafının və həmçinin ərzaq mallarının ixrac potensialının təminində imkanlar yarana bilsin. Azərbaycanda olan iqtisadi modernizasiya məsələlərinə aid B.X.Ataşov, V.Ə.Qasımlı və başqa tədqiqatçıların əməyi olduqca böyükdür. Müasir zamanda ƏK-nin modernizasiya məsələsinə olan yanaşmaların elmi-metodoloji təhlil edilməsi yeni struktur mərhələsinə çevrilməkdədir. Aparılan tədqiqatda ölkənin davamlı formada gedən inkişafı fonunda rəqabət qabiliyyətinə malik ərzaq strukturlarının qurulması üçün modernizasiyanın tətbiq edilməsi və praktiki cəhətdən istiqamətləri müəyyən edilmiş, təkliflər irəli sürülmüşdür. Bununla bərabər, Azərbaycanda olan dayanıqlı iqtisadi inkişafetmə modelinə xas ƏK-nin yeni olan keyfiyyət dəyişmələri əsaslandırılaraq, aqrar sahə ilə emal müəssisələri arasındakı əlaqə təhlil olunmuşdur. Ərzaq kompleksi (ƏK) - dövlətə xas iqtisadi inkişaf etmənin tələb olunduğu və qlobal kontekstdəki, ərzaq mallarının iqtisadiyyatı sistematikasının dayanıqlı inkişafının strateji tərkib hissəsidir. İnsanlığın var olmasını təmin edən ərzaq malları qlobal əhəmiyyətə malik olub, elmi, akademik-praktiki mənbələrdə olduqca geniş analizləri aparılmışdır. Problemin həll edilməsində aqrar təsərrüfatı və emalı malları ərzaq məhsulları kompleksinin formalaşmasının əsası hesab edilir. ƏK-nin təşkil edilməsi və ərzaq bazarının mövqeyi baxımından qlobal miqyasda və həmçinin ölkələrin dayanıqlı formada göstəricisi olaraq önəmli problemlərdən hesab edilir.

Ərzaq malları istehsal edilməsi, bölgü, ixrac gücü və istehlak prosesi qlobal iqtisadi sistemin tərkibi olmaqla bərabər, dünya ölkələrinin ilkin siyasi əlaqələrində də eksklüziv yeri ilə fərqlənməkdədir. Problemin vacib istiqamətlərindən biri dünya iqtisadiyyatının mühüm subyekti və obyekti hesab olunan insanın həyat fəaliyyətinin dayanıqlı şəkildə inkişaf etməsi, ərzaq mallarının istehsalı və ərzaq təhlükəsizliyi ilə əlaqəlidir. Həmin bağlılıq öncəliklə kənd təsərrüfatı mallarının inkişafı ilə bağlıdır. Bundan iki min il öncə qədim yunan filosofu Ksenofond əsaslı formada qeyd edirdi ki, “Kənd təsərrüfatı malları bütün digər sənətlərin ailə başçısı və anası hesab edilir: kənd təsərrüfatı sahəsi düzgün idarə edildikdə, bütün başqa peşələr tərəqqidə olur”. Müasir dövrün iqtisadi baxımdan inkişaf mərhələsində başqa sahələrlə paralel kənd təsərrüfatı və emal sahələri beynəlxalq formada iqtisadi-sosial münasibətlərin vacib mənbələri olaraq elmi tədqiqatın obyektinə çevrilmişdir.

Qlobal baxımdan əhalinin və həmçinin emal sənayesinin ərzaq malları ilə təmin olunmasında ƏK-nin qurulması məsələlərinin öyrənilməsi problemləri iqtisadiyyat elmində strateji əhəmiyyətə sahibdir. Bununla belə ƏK-nin insanların yaşam qidasının formalaşdırılmasında iştirakı həyat fəaliyyəti prosesinin aktivləşdirilməsinə yardımçı olur.

ƏK, həmçinin qlobal iqtisadi inkişaf baxımından vacib tərkib strukturu olmaqla bərabər, ölkələrin hər birinin siyasi baxımdan həyat tərzinin formalaşaraq qabaqcıl istiqamətlərində əsas mövqe tutur.

Ərzaqla təmin olunmanın dayanıqlı inkişafetmə konsepsiyası əhalinin ərzaq malları təminindəki balans ideyasından irəli gəlməkdədir. İlk dəfə olaraq “dayanılan inkişaf” fikrinin modeli BMT-nin Ətraf Mühitin İnkişaf etməsi üzrə Ümumdünya Komissiyası tərəfindən qəbul edilmişdir. Dayanıqlı ərzaq mallarının təmin edilməsi modelinə keçid edilməsi ərzaq mallarının qorunması və effektli şəkildə idarəsi mexanizminin - müasir texnologiyalar əsasında aqrar iqtisadiyyatın fərqli struktur sahələri kompleksinin qurulmasını tələb edir. Dayanıqlı olan inkişaf modelinə keçid imkanı ərzaq mallarının təmin edilməsinin iqtisadi inkişaf strategiyası mahiyyətini özündə ehtiva etdirməklə bərabər, ölkədaxili milli bazar iqtisadiyyatının ərsəyə gəlməsi ilə iqtisadi-sosial münasibətlərin dözümlülüyünü də özündə cəmləşdirir. Qloballaşmaqda olan iqtisadi inkişafa uyğun şəkildə ƏK-nin xammal resurslarıyla təmin olunması, dözümlü özünütəminatı səviyyəsinin yüksəldilməsi məqsədilə xarici firmaların iştirakı, həmçinin ölkə daxilindəki investisiyaların təsiri UNCTAD-ın Hesabatında əsaslandırılmışdır [UNCTAD. Word investment Report, 2010, p. 40].

ƏK-nin fəaliyyət prosesində TMK (25-ə yaxın) iştirak etməkdədir. İnkişaf prosesi olan ölkələrdə çox miqdarda ƏK ilə çalışan TMK firmaları qurulmuşdur. (Məsələn: “Sime Darby Berhadh” (Malayziya), “Dole food”, “Fres Del Monte (ABŞ) və s.). TMK-lar qrupuna qida mallarının, sənaye əsaslarla ərzaq mallarının bazar iqtisadi münasibətlərinə uyğun şəkildə təşkil olunması və idarəsi və s. aiddir. Nümunə, qida malları və içki məhsullarının ən böyük şirkəti hesab edilən “Nestle” (İsveçrə) TMK-sı 66 mlrd. dollar dəyərində xarici aktivlərə, ərzaq malları ilə pərakəndə satış ticarət sahəsində fəaliyyətdə olan “Walt-Mart Stores” (ABŞ) 63 mlrd. dollar dəyərindəki aktivlərə nəzarəti ələ alıb. Qidaların dayanıqlı istehsal edilməsi sahəsində 50-ə yaxın aparıcı firmadan 40-a yaxını inkişaf etmiş sənaye istehsalı ilə məşğul olan ölkələrdə qurulmuşdur. Həmin şirkətlərdən biri H.J. Heinz Co., Karft Foords İnc., Sara Lee Co. və s. (ABŞ); Heinken və s. (Almaniya); SABMiller, Diageo plc., Cadbury plc. və s. (Böyük Britaniya); Kirin Holdings Company Ltd (Yaponiya) və s. misal göstərmək olar. Bütün dünyadakı İEÖ-də yerləşən 25 iri dayanıqlı ƏK-nin 24%-i ABŞ ölkəsində təşkil edilmişdir. ƏK-nin fəaliyyət prosesinə TMK ilə yanaşı beynəlxalq təşkilatların təsiri də mövcuddur. BMT-nin Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (İFAD) və Beynəlxaq Ərzaq Proqramı (BƏR), Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən irəli sürülən poqram və layihələrin analizi nəticəsində müəyyənləşmiş səviyyələrdə ƏK strategiyasının inkişafı prosesinin fəaliyyət miqyası daha da genişlənməkdədir. Qlobal aləmdə Kənd təsərrüfatı və ərzaq Təşkilatı (FAO) 1945- ci ildə qurulmuşdur. Təşkilat səmərəli olan aqrar inkişaf sahəsinin kompleksliyinin təminində layihələri icra edir. FAO sistemində (1967-ci ildə) dünya ölkələrində ərzaq malları iqtisadiyyatının təşkil olunması və idarəsi məsələlərinə aid

proqramlar fəaliyyətdədir. FAO-nun hesablamalarında ərzaq mallarının çatışmazlığından əziyyət çəkməkdə olan əhalinin sayı 134 mln.-dan çoxdur (dünya əhalisinin 18.7%-i). Həmin göstərici inkişafda olan ölkələrdə təqribən 23.3%-ə yaxındır (2000-2010-cu illərdə). FAO tərəfindən dünyadakı insanların qida tələbatlarına uyğun şəkildə dəyərləndirilməsinə aid hesablamalar hər il hesablanır və xüsusi bülletenlərdə əks olunur. MİMP-ə əsasən iqtisadiyyatdakı böhranların təkrar edilməməsinin nəzərə alınması şərtində yaxın zamanlarda ərzaq malları ilə özünütəminetmədə dəyişikliklərin edilməsində yüksəlmə müşahidə edilməkdədir. Son iki onillikdə dünyada yaşamaqda olan əhalinin ərzaq malları çatışmazlığının səviyyəsi 28-29% aşağı enmişdir. Asiyada əhalinin sayındakı artıma baxmayaraq ərzaq malları ilə özünütəminetmə 14.2%-dən 22.6%-ə, LA ölkələrində isə 9.5 %-dən 14.9 %-ə yüksəlmişdir. Ümumdünya ölkələrinin dayanıqlı inkişafı praktikasındakı modernizasiya strateji məzmuna sahib olmaqla bərabər, həmçinin siyasi məsələ kimi vacib əhəmiyyətə sahibdir. Modernizasiya ƏK-nin dayanıqlığının təmini məqsədi daşıyan tədqiqat obyektinin texniki-iqtisadi keyfiyyət və yeni norma tələblərinə uyğun olması kimi qəbul olunur. Müasirləşmə, modernizasiya parktikasında araşdırma və tədqiqat aparan M. Bermanın irəli sürdüyü ideyaya əsasən, heç bir şey daimi olmamaqdadır, bütün bir hadisə (obyekt) hər daim dəyişilməlidir ki, yeni olanlar formalaşmaya meyil etsinlər. Bermanın modernləşdirilməyə aid yanaşma tərzinə görə xarakterik hər hansıs proses strategiyanın məqsədlərinə uyğun şəkildə daim dəyişilir, yeni məzmun kəsb edir. [Berman M. 1988, page 125].

V.Qasımlının ideyasına əsasən, modernizasiya prosesinin innovativ inkişaf prosesi olmadan təsəvvür olunması mümkün ola bilməz. Problemin mahiyyəti ondan ibarətdir ki, modernləşmə yenilənmələrin - innovasiyaların tətbiq olunmasını özündə ehtiva etməkdədir [Qasımlı V, 2014, s. 14]. Elmi tədqiqatların nəticələri onu göstərir ki, ƏK-nin modernizasiya kontekstinin mahiyyətinin əsası innovasiya baxışlarının həqiqətlərini özündə cəmləşdirir: müasir texnoloji əsaslarla məhsulun istehsal edilməsi; müasir təkliflərin elmi mənbəsi; ixraca yönümlü olan, dayanıqlı bazarların mövcudluğu və s. Fikrimizə əsasən, dinamik olan iqtisadi milli modelə əsaslanmış ƏK sferası modernizasiya səviyyəsinə çatdıqdan sonra bəzi səviyyələrdə dayanıqlı effektə sahib olur. Həmin səbəbdən də elmi araşdırmaların praktiki tətbiq edilməsi nəticəsində ərzaq mallarının təminatı və uyğun istehsalın keyfiyyət parametrlərini müəyyənləşdirmək mümkünlüyü ortaya çıxır.

**Metodologiya**

Tədqiqatın mövzusuna uyğun gələn sənaye mənşəli ərzaq mallarının təmin edilməsi və onun elmi əsaslara dayanaraq modernizasiyası fikrində analizin aparılması nəzərdə saxlanılmışdır. Modernləşmə: müasir texnologiyaların tədbiq edilməsi, davamlı olaraq kənd təsərrüfatı mallarının yetişdirilməsi, ərzaq mallarının keyfiyyət və kəmiyyət parametrlərinin müəyyənləşməsi, ekoloji ərzaq malllarının dayanıqlığının təmini yeni praktikanın tədbiq edilməsinin önəmə gətirilməsini əhatələndirir. ABŞ, Almaniya, Çin və s. ölkələr tərəfindən ƏK sahəsindəki elmi və iqtisadi, texnoloji əsaslara dayanan proqram və layihələr hazırlanaraq, praktiki həlli istiqamətində işlər görülür. FAO-nun təlimatlarına əsaslanaraq 2030-cu illərdə normal şəkildə qidalanan əhali gündəlik olaraq 3050 kkal ərzaq malları istehsal edəcəkdir. Qeyd edilən göstəricinin hazırkı dövrdəki 2800 kkal göstəricidən 8.9% artıq olması nəzərdə saxlanılmışdır. Ərzaq mallarının təmin edilməsi qlobal bir problem hesab olunduğundan hər bir ölkənin iqtisadi-siyasi strategiyasının əsas bölmələrindən hesab edilir. Ölkədaxili milli ərzaq siyasəti, əhalinin ərzaq malları ilə təmini imkanları kənd təsərrüfatının inkişaf fəaliyyəti ilə əlaqəlidir.

Yer kürəsinin 2/5 hissəsində yaşayan insanların məşğuliyyətinin əsas hissəsi kənd təsərrüfatı mallarının istifadəsi ilə bağlıdır. BMT-nin verdiyi məlumata görə ümumdünya üzrə iqtisadi baxımdan fəal olan əhalinin 40%-i kənd təsərrüfatında fəaliyyət göstərir. Bu göstərici sənaye cəhətdən İEÖ-də 3-4%, İEOÖ-də isə təqribi hesablamalara görə 70-80%-dır. Ümumdünya kənd təsərrüfatı malları üzrə ən böyük istehsalçılar: Çin (22%), Hindistan (16%), ABŞ (8%) və s. əhalisinin sayı çox olan ölkələr həmin cəhətdən fərqlənməkdədirlər. Əhalinin qida taxıl məhsullarının xüsusi çəkisində təqribən 50%-i İEÖ (ABŞ-25%, Avropa İttifaqı ölkələri - 16%) təmin etməkdədir. Qlobal formada ərzaq mallarının istehsal edilməsinin səviyyə göstəricilərində İOÖ-nün potensial

imkanları daha çoxdur. FAO-nun iqtisadi ekspertlərinin statistik informasiyalarına görə İOÖ-də ərzaq mallarının 80%-ə qədəri istehsal edilir və həmin ölkələrdə dünya əhalisinin 75%-i məskunlaşmışdır. BMT-nin statistik informasiya mənbələrinə əsasən, dünya üzrə ƏK-nin təmin olunmasında bitkiçilik məhsulları üstünlükdədir. Ərzaq mallarının təmin olunmasında taxıl istehsalı əsas etalon qəbul edilir (dünya əhalisinin qida rasionunun 60%-dən çox hissəsini taxıl məhsulları təşkil etməkdədir). Taxıl istehsalı etalon qida kompleksində başqa sahələr üçün yaradıcı sistem funksiyasını daşıyır. Qlobal miqyasda taxıl istehsalının bazardakı mövqeyi ölkələrdə olan ərzaq malları kompleksinin qurulmasının göstəricisi olaraq fəaliyyətdədir. FAO-nun ekspertlərinin tədqiqatlarına görə dayanıqlı inkişaf miqyasında ərzaq mallarının təmin edilməsi proqramlarını yazarkən, ölkələrdə olan taxıl resursunun ehtiyatının ümumdünya istehsalına nisbətindəki iqtisadi dəyərinin ən vacib arqumentinin reallığı qəbulu təklif edilir. Ümumdünya taxıl istehlakının 60 gününə bərabər olan (cəmi istehlakın 17%-i miqdarında) keçid taxıl ehtiyatının miqdarı təhlükəsiz səviyyəni əhatələndirir. Ölkə daxilindəki əhalinin bir ildəki istehlakının 17-20%-i qədərində taxıl ehtiyatı olduğu zaman təhlükəsiz hesab olunur. Bu dövrdə taxıl resursunun illik istehlakdan əlavə olaraq ölkə əhalisinin əlavə 2 ay dövründə taxıla olan tələbatının təmininə imkanı olmalıdır. Tədqiqat və analizlərə əsaslanaraq taxılın ixracını həyata keçirən ölkələr tərəfindən təklif olunan buğda, qarğıdalı və vələmirin qiymətləri əsas olaraq qəbul olunmuşdur. Beynəlxalq sferada bazardakı qiymətlərin aşağı səviyyəsi taxıl məhsulu ehtiyatlarının toplanmasının indikatoru, yüksək səviyyəsi isə taxıl ehtiyatlarından istifadə etmənin indikatoru funksiyasını daşıyır. Taxıl sahəsinin qida kompleksinin iqtisadi zonadakı inkişafındakı yeri, cəlbolunma və dövretmə miqyasının metodik üsulu ilə müəyyənləşir. Qloballaşma mühitində əhalinin qida məhsulu rasionu göstəricilərində taxıl məhsulu və emaledilmə məhsulları ərzaq mallarının təminatının əsası hesab edilir. Bununla bərabər əhalinin ərzaq mallarının təmin edilməsi potensialında başqa sənaye mənşəli qida mallarının istehsal edilməsi önəmlidir. Qlobal sferada ərzaq malları kompleksinin formaya düşməsi bir yandan əhalinin ərzaqla təmini effektliyini çoxaldır, başqa bir yandan isə iqtisadi-siyasi mövqe göstərir (şəkil 1.).




***Şəkil 1. Milli ərzaq kompleksinin qlobal modern konteksti.***

Dayanıqlı ərzaq malları kompleksinin mövcudluğu - istehlak bazarında kifayət dərəcədə çox qida keyfiyyətinə malik olan məhsulların mövcud olması və bolluğu anlamındadır. Əhalinin daha keyfiyyətli olan ərzaqla təmini, ərzağın siyasi və iqtisadi imkanlarıyla bağlılığı vacib məsələ olaraq qəbul olunur. Qlobal ərzaq malları təhlükəsizliyinin modernizasiyası dedikdə ekoloji baxımdan ərzaq mallarının təhlükəsizliyinin təsnif edilməsi, ərzaq mallarının analoji qidalandırıcı tərkib hissəsi, ekoloji baxımdan təmiz sayılan qida məhsullarının istehsal edilməsi və istehlakının modernizasiyası nəzərdə tutulur.

**Ədəbiyyatların təhlili**

İqtisadi baxımdan elmi tədqiqatlara əsasən, ərzaq mallarının 25%- dən artığı xarici ölkələrin səyi ilə yerinə yetirilirsə, bu ölkənin ərzaq mallarının təmin edilməsi təhlükəli hesab edilir. Son zamanlarda əhalinin qida məhsulları rasionu da dəyişilməyə başlamış, heyvandarlıqla bağlı məhsullarının istehlak edilməsinə meyillilik çoxalmaqdadır. Son dövrlərdəki iqtisadi baxımdan inkişafın konseptual problemlərindən biri də milli ərzaq mallarının iqtisadi siyasət normasında özünütəmin və qloballaşmaqda olan ərzaq sahələri arasındakı optimal nisbət dərəcələrinin müəyyənləşməsidir. Qloballaşmaqda olan ərzaq malları siyasəti ümumbəşəri qiymətləndirməsi ilə bərabər, əhalinin fasiləsiz olaraq qida rasionunun dayanıqlı olmasını təmin edir, müasir texnologiyayla ərzaq mallarının istehsal edilməsinin balanslaşdırılması vəzifəsini həyata keçirir. XIX əsrin sonu, XX əsrin ilkin dövrlərindən ölkələrarası ərzaq mallarının ticarət baxımından dinamikasının optimallıq dərəcəsi yüksəlmişdir. Problemin məğzi ondadır ki, iqtisadi baxımdan inkişaf dinamikası müddətində İEO-nun ərzaq malları istehsalının əsas mövqeyi ərzaq bazarı məkanında qorunur. Vahid olan qlobal ərzaq malları bazarının qurulması, açıq olan ərzaq malları siyasəti ilkin baxışda daha çox geri qalan ölkələr üçün zəruri hesab edilsə də, əslində isə iqtisadi baxımdan İEÖ-nün ərzaq mallarının təmin edilməsində daha da böyük ehtiyaclar da mövcuddur. Qeyd edilən cəhətlərə görə dünya ölkələrinin ümumiqtisadi inkişaf bazasında ərzaq malları təminatı qlobal məsələyə çevrilməsi ilə fərqlənməkdədir. Elmi təhlil və analizlərin nəticələri onu göstərir ki, müasirləşən dünya əhalisinin həqiqi yaşayış vəziyyətinə və ƏK-nin dayanıqlı inkişafına uyğun olan ərzaq təmininin modellərinin formalaşması prosesləri yeni dövrdə də davam etməkdədir. ABŞ tədqiqatçı alimi M. Ensmingern analizi ilə dedikdə - “...istehlak ərzaq malları məsuliyyət, həmçinin silahdır. Məhsuliyyət, ona görə ki, insanın yaşama və qidalanması üçün vacib yetərincə ərzağın mövcudluğu onun ən başlıca hüququ hesab edilir. Başqa mövqedən, silahdır, ona görə ki siyasət və iqtisadiyyatda ərzaq malları böyük strateji təsirə, silah və neftdən daha çox gücə sahibdir”. FAO-nun iqtisadiyyatla məşğul olan ekspertlərinin məsələ ilə əlaqədar elmi tədqiqatlarına görə kənd təsərrüfatı mallarının istehsal investisiyaları 50% çoxaldılmalıdır. Hesablamalara əsasən dünyadakı əhalinin sayı 2050-ci illərdə 9.0 mlrd-ı keçməsi ehtimalı proqnozlaşdırılmışdır. Məqsəd etibarı ilə hər il İEÖ-nün kənd təsərrüfatı malları istehsalına görə xalis investisiya qoyuluşu 83.0 mlrd. ABŞ dolları miqdarı hesablanmışdır. Tələb edilən investisiyaların kənd təsərrüfatı mallarının istehsal edilməsinə, habelə soyuducu kamera, anbarlar və marketinq sferaları, emal olunan sənaye mallarına yönəldilməsi nəzərdə saxlanılmışdır. Ümumdünya iqtisadiyyatında olan enerji daşıyıcıları arasındakı dəyərlərin qeyri-sabitliyi, aparıcı olan ölkələrin maliyə baxımdan resurs bazarındakı baş verməkdə olan dinamik səviyyəsi, əhalinin sürətli şəkildə artımı və s. problemlər ərzaq mallarının təmin edilməsi xarakterində qlobal dəyişkənliklərin ortaya çıxmasına səbəb olmuşdur. Yeni dövrün reallıqlarında elə vəziyyət ortaya çıxmışdır ki, əhalinin ərzaq mallarının təmin edilməsində bütövlüyünü yaratmaq vahid ölkə sferasında praktiki şəkildə mümkünsüzdür. Bu cəhətdən ölkədəki ərzaq mallarının təmin edilməsinin dayanıqlı olması və idarəsi məqsədi ilə dünyadakı ölkələrin elmi-tədqiqat araşdırma proseslərindən kompleks şəkildə istifadəsi önəmli hesab edilir. Kənd təsərrüfatı malları və ərzaq mallarının təmini, inkişaf prosesinin gələcəyi dünyadakı iqlim dəyişkənliyi ilə olduqca bağlıdır. Təhlil olunan materialların nəticə etibarı ilə iqlimdəki müəyyən dəyişilmələrin meydana çıxmasına görə gələcəkdə ərzaq mallarının çoxalma tempinə tədrici dərəcədə təsiri proqnozlaşdırılır. Müasir zamanda ərzaq məhsullarının çatışmaması nisbətləri iqlimdəki dəyişilmələrə daha həssasdır. FAO-nun informasiyasına əsasən iqlimdəki dəyişkənliyin ərzaq malları istehsal edilməsinə təsirinin az olduğu anda, 2050-ci ilədək ərzaq malları istehsalına təsir edəcəkdir. İqlimdəki qlobal istiləşmənin nəticəsi olaraq sənaye baxımından İEÖ-də kənd təsərrüfatı mallarının istehsal edilməsinin ümumi həcmi 9%-dən 21%-ə düşməsi əsaslandırılmışdır. İqlimdəki dəyişkənliyə cavab kimi, elmi-tədqiqat mərkəzlərində yeni ideya və fikirlərin tədbiq edilməsinə başlanmışdır. Ərzaq mallarının istehsal edilməsində meliorativ tədbir proseslərinin nəticəsi olaraq torpaqdakı karbon qazının çıxarılması, həm də torpağın əkib-becərilməsinin və deqradasiya edilmiş torpaqların təkrarən bərpa olunması ilə bağlı layihələr yerinə yetirilir. FAO-nun ən son

proqnozlarına əsasən 2050-ci ildə əlavə olaraq 2.3 mlrd. nəfər əhalinin ərzaq malları ilə təmini üçün dünya kənd təsərrüfatı mallarının istehsal edilməsinin təxmini olaraq 70%-dək çoxaldılması təklif edilir. Ərzaq mallarının təmin edilməsi metodikası çərçivəsində məhsuldar kənd təsərrüfatı bitki növlərinin yaradılması və istifadəsi vacib məsələlərdən hesab edilir. Müasir məhsuldar bitki növlərinin istifadəsi, ilkin vəziyyətdə ərzaq mallarının istehsal edilməsində iqlim dəyişikliyi və içməli su resurslarının azlığı daha dayanıqlı reaksiya yaradır. Elmi-tədqiqat mənbələrinin təhlil edilməsi metodikasına əsaslanan ərzaq mallarının təmin edilməsi kompleksi modernizasiya çərçivəsində cəmiyyətin iqtisadi baxımdan inkişafının dayanıqlığının gerçəkliyini özündə cəmləşdirir. Məntiqi baxımdan nəticə ondan ibarət olur ki, ərzaq mallarının təmin edilməsi funksiyalarının təşkil olunması və idarəsi qlobal məzmuna sahib olub ümumdünya iqtisadiyyat elminin tədqiqat prosesi aparatının tərkib hissəsidir. İqtisadiyyatın metodlarından istifadə ilə ƏK-nin dayanıqlı inkişaf etməsinin təyinində bəzi yanaşmaların həyata keçirilməsi vacib məsələ olaraq qəbul olunur. Başqa bir yöndən isə ərzaq mallarının strukturlarının koordinasiya edilməsinin optimallıq dərəcəsi vacibliyə gətirilməklə elmi baxımdan idarə formalarının tətbiq olunması formalarının təyini imkanları ortaya çıxır. Tədqiqat koordinasiyasının optimallıq dərəcəsi elmi aqrar iqtisadiyyatın nəzəri baxımdan predmeti hesab olunur və dayanıqlı şəkildə səviyyəsini ümumləşdirməkdədir. Elmi mənbələr ƏK elminin metodlarına əsaslanan konstruktiv fikirlərin gerçəkliklərini özündə ehtiva edir. İqtisadiyyat elminin formalaşma və elmi-praktikasına əsasən qlobal məzmuna sahib fikirləri özündə cəmləşdirir. BMT-nin sahib olduğu elmi-ekspertiza institutları aqrar iqtisadiyyatın nəzəri-metodikasına aid kompleks layihə və proqram tədbiq edilməsinin nəticəsi olaraq radikal dəyişkənliklərin ortaya çıxmasına səbəb olmuşdur. Aqrar iqtisadi inkişaf baxımından kompleks olan funksional strukturun müasirləşdirilməsinin qəbuluna bəzi qrup tədqiqatçılar bu istiqamətdə diqqət göstərirlər. Müasirləşdirmə məsələlərinə aid tədqiqatçılar bəzi fikirlər önə sürmüşlər. B.X. Ataşovun araşdırmalarına görə aqrar iqtisadiyyatda müasirləşdirmə məsələlərinin dayanıqlı inkişafına aid tədqiqatları yerinə yetirməklə kompleks nəticələrə gəlmək mümkündür [6, səh 278].

Bu cəhətdən modernləşmə məsələlərinin təhlili zamanı konkret olaraq iqtisadi sistemin təşkil edilməsi prinsiplərinə-sənaye əsaslarla ərzaq mallarının istehsal edilməsi metodologiyasına, konstruktiv baxımdan yanaşma meyarına daha çox üstünlük verilməsini doğru qəbul edirik.

### *Nəticə*

Qlobal şəkildə özünü təminetmə və xarici ticarət ƏK-nin dayanıqlı inkişaf prosesilə bağlıdır. Hər bir ölkədə ayrılıqda ƏK-nin qurulması öncəliklə xarici ticarət məsələlərinin hesabına formalaşmışdır. Qeyd etmək məqsədəuyğun olar ki, yeni dövr şəraitdə ixrac kvotası dünyadakı kənd təsərrüfatı mallarının istehsal edilməsinin ümumhəcminin nisbəti 34-36% aralığında dəyişilir. Qərb dövlətləri dünyada olan kənd təsərrüfatı mallarının ixracını təqribən 70%-dək, idxal edilməsini isə 60%-ə qədər təmin edirlər [FAO 2012, page 61.] ABŞ-ın dünya ölkələri üzrə ərzaq mallarının ixracatındakı ekskluziv çəkisi - 15%-dir. Avropa İttifaqı dövlətlərində qeyd edilən kəmiyyətin göstəricisi isə- 45% dir. Qlobal şəraitdə ƏK, hər bir dövlətin dayanıqlı şəkildə siyasi baxışlar və sosial-iqtisadi strateji sahələrinin tərkib hissəsinə daxildir. Hər bir dövlətin ümumi şəkildə inkişafetmə kontekstində başqa amillərlə bərabər, ərzaq malları təminatının sosial-siyasi dəyişilmələrinin mexanizmi olduqca böyük miqyasda məzmuna sahibdir. ƏK-nin təmin edilməsi mürəkkəb formalı daxili quruluşa sahib olub, 4 istiqamət formasının vacibliyini tələb edir:

Milli “insan düşüncə” formasına əsaslanmış ərzaq malları sənaye məhsulunun təşkil edilmə və inkişafı mexanizmi;

Milli ərzaq malları resurslarına və rəqabətədavamlı istehsala nail olmaq;

Milli ərzaq mallarının dayanıqlıq və stabilliyinin təmini;

Kompleksin idarəetmə qabiliyyətinin təmini.

ƏK vertikal idarə olunan təsərrüfatçılıq subyektləri olaraq elmi-tədqiqatlarda vacib yerdədir.

Burada əsasən iki istiqamət fəaliyyətdədir: kənd təsərrüfatı mallarının istehsalı və emalı sənayesi. Şəxsi fəaliyyətdəki maliyyə, kimya, maşınqayırma və s. inteqrasya elementlərindən də istifadə olunur.

**ƏDƏBİYYAT**

1. Abbasov A.F. (2007). “Ərzaq təhlükəsizliyi”. Bakı, “Nasir”, 207 s.
2. Alıyev İ.H. (2006). “Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri”. Bakı, “Təhsil”, 136 s.
3. Aliyev İ.H. (2008). “Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri”. Bakı, “Çaşıoğlu”, 168 s.
4. Ataşov B.X. (1995). “Respublikada mərkəzləşdirilmiş ərzaq fondunun formalaşmasının nəzəri məsələləri // Azərbaycan aqrar elmi, Bakı, “Adiloğlu”, s.1-2.
5. Ataşov B.X. (1998). “Respublikada ərzaq kompleksinin hazırkı durumu və inkişaf meyilləri // Azərbaycan XXI əsrin astanasında. I Respublika elmi-praktik konfrans materialları”. Bakı, “Elm”, 194 s.
6. Ataşov B.X. (2006). “Ərzaq təhlükəsizliyinin aktual problemləri”. Bakı, “Mütərcim”, 278 s.
7. Qasımlı V. (2014). “İqtisadi modernizasiya”. Bakı, “Mütərcim”, 14 s.
8. Berman M. (1988), page 125. That is Solid Melts into Air: The Experience of Modernity, Perguin Books.
9. The State of Food Insecuriry in the Word 2012, page 61. FAO.
10. UNCTAD. Word investment Report, 2010 page 40. Transnational Corporations, Agricultural Production and Development.

***доц. Садагат Эльман кызы Ахмедова***
***Бакинский Государственный Университет,***
***старший лаборант,***

***Вафа Чингиз кызы Гулиева***
***Нахчыванский Государственный***
***Университет, Диссертант***
***vefaquliyeva96@gmail.com***

## Устойчивое развитие национального продовольственного комплекса на основе глобализации

***Резюме***

В направлении центра реальности анализ продовольственного комплекса нашей страны с учетом глобального положения аграрной экономики, перспектив будущего развития и теоретико-методологической базы.

Определение устойчивости модернизации пищевой промышленности в условиях глобализации, реализация ряда мероприятий по определению вариантов производства экспортно-ориентированных и инновационных продуктов питания данной страны, отмечены практические результаты и рекомендации.

**Цель -** Цель идеи - модернизировать продовольственный комплекс и определить его устойчивость, выявить варианты научного управления экспортно-ориентированным и инновационным производством продуктов питания в стране.

**Методология.** В исследовательской работе использованы методы построения системы сравнительно-аналитических показателей.

**Результаты исследования** - актуальные предложения о стратегической важности исследований Азербайджана, проходящего этапы устойчивого развития, на основе научного направления, основанного на главном направлении государственной политики.

***Ключевые слова: продовольственный комплекс, устойчивое развитие, модернизация, продовольственная безопасность.***

***ass. prof. Sadagat Elman Akhmedova***
***Baku State University, laboratory assistant***

***Vafa Chingiz Guliyeva***
***Nakhchivan State University, dissertation candidate***
***vefaquliyeva96@gmail.com***

## Sustainable development of the national food complex on the basis of globalization

***Summary***

Towards the center of reality, the analysis of the food complex in our country based on the global position of the agrarian economy, prospects for future development and theoretical and methodological bases is put forward.

Determining the sustainability of the modernization of the food industry in the context of globalization, the implementation of a number of measures in determining the production versions of export-oriented and innovative food products of this country, noted the practical results and recommendations.

**Objective -** The purpose of the idea is to modernize the food complex and determine its sustainability, to identify options for scientific management of the country's export-oriented and innovative food production.

**Methodology -** In the research work, methods of comparing and constructing a system of analytical indicators were used.

**The results of the research -** relevant proposals on the strategic importance of the research of Azerbaijan, which is going through the stages of sustainable development, based on the scientific direction, based on the main direction of the state policy.

***Key words: food complex, sustainable development, modernization, food security.***